Ədəbiyyat qəzeti

# Xoşca qal, gəlişindən sevgi umduğum böyürtkən rəngli gecə, Xoşca qal, sərsərilər kimi dolandığım küçə.



## Behcət Aysan

Çağdaş türk şeirinin ən böyük nümayəndələrindən biri - Behcət Aysan 1949-cu ildə Ankarada anadan olub. Yaradıcılığa lap erkən yaşlarından başlayıb. "Qarlı gecə", "Səslər və küllər", "Sentyabr", "Dəniz fənəri" və s. şeir kitablarının müəllifidir. Əsərləri bir sıra mükafatlara layiq görülüb.

Şeirləri Azərbaycan oxucularına ilk dəfədir ki, təqdim olunur.

### AY DÜŞƏR DƏNİZƏ

Ay düşər dənizə -
soni xatırlayaram.
İncə-incə yağış yağar,
Limana yan alar gəmi -
səni xatırlayaram.

Ay düşər dənizə -
qəlbim çırpınar, çırpınar
qəfəsə salınmış quş kimi,
önümdən
bir qadın keçər,
qaralar geymiş,
yaxasında
ipiri qırmızı bir gül -
səni xatırlayaram.

Ay düşər dənizə
və mən
hələ söylənməmiş bir türkü,
hələ yağmamış boyaz qar,
hələ açmamış bəgənayam...
Vağzalda
tərpənmək üzrədir qatar -
səni xatırlayıram.

### YOLAYRICI

Burda dəniz qurtarır,
qağayılar
təlaş içində
dalğaların qoynuna
qayıdırlar.
mənimsə
gedəcək bir yerim yoxdu...
Burda dəniz qurtarır
və göy üzü başlayır,
ucsuz-bucaqsız,
dərin,
kirli göy üzü...
Deyirəm,
bacarırsınızsa,
durdurun,
pünhan yerdə sevişirlər:
rüzgarla rüzgar,
xəyalla xəyal,
yuxuyla yuxu.

Burda dəniz qurtarır
və göy üzü başlayır;
qalmışam yolayrıcında -
nə qayıtmağa bir ada,
nə getməyə bir ulduz var...

### BAYIRDA QAR YAĞIR

Bayırda qar yağır,
küçədəki fənərlərin
gözlərinə dolur
ağappaq dənəciklər.
Sərçələr üşüyür.
Kənarları yanmış,
səhifələrinə qan çilənmiş
bir kitabda
Nazimin şeirlərini oxuyuram -
Yanıq iyi gəlir sözlərdən

Bayırda qar yağır,
məhəlləmizin dəliqanlıları
dağın ətəyindəki
lokantaya yollanırlar,
qışı
rakı ilə
qızdırmaq istəyirlər...

Bayırda qar yağır.
Səndən
indicə məktub aldım -
cümlələrindən
İstanbulun ətri gəlir...

Bayırda qar yağır,
yağır ki, səni sevim...

### ÇİÇƏK SATAN QIZ

Yalova yolunda
çiçək satan qız
ağkirpik gülü
taxmış saçlarına,
bir yandan da
türkülər oxuyur,
yanıqlı-yanıqlı.
"Gəlin, alın çiçəklərimi:
bu, sırğa çiçəyidir,
boynu bükük,
öksüz kimi,
bu, bəmbəyaz
qartopu çiçəyi -
gəlin duvağı,
bu, ərguvan,
qara bəxtli,
üstündə
igidlərin sevgi uğrunda
axıdılmış qanı,
bu, zebr gülü,
zolaqlı,
bəyim, heç görmədinizmi?
Bu, ayçiçəyi... günçiçəyi...
bəzən ümid,
bəzən ümidsizlik rəngində,
göy üzündə yetişir,
amma
sizin göy üzünüz varmı ki?
Çiçəklərim var, çiçəklərim...
Bəs, bu dumanlıqdan -
yuxu çiçəyindən almazsınız?
Yatarsınız,
durarsınız,
açar. pəmbə-pəmbə...
Sizin yuxunuz varmı ki?"

Yalova yolunda
çiçək satan qız
ağkirpik gülü
taxmış saçlarına.
Bir yandan da
türkülər oxuyur,
hüznlü-hüznlü...

### TÜKƏNİŞ

Bir şey qalmadı yerdə -
ac quşlar
ulduzları dənləyirlər.
Bir şey qalmadı yerdə -
ac quşlar
günəşin xınasını apardılar.
Bir şey qalmadı göy üzündə...

### GƏLƏCƏK DEYİLƏN BİR ŞEY VAR

Bilirəm,
gələcək deyilən
bir şey var,
dəmirin safı - su qatılmamışı.
Bilirəm,
ırmaklar keçiləcək,
fırtınalar susacaq.
Bilirəm,
gün gələcək -
üzümüz güləcək;
sülhə, qardaşlığa
salam verib,
salam alacağıq.
çocuqlar
hər axşam
tox yatacaq.
Nə tikanlı məftillər olacaq,
nə tanklar-tüfənglər,
nə tuberkulyoz-filan,
nə işsizlik...
Eşq - göz-gözə,
dostluq - çiyin-çiyinə,
bilirəm,
bizim də,
bizim də
süd kimi ağappaq,
çörək kimi isti
günlərimiz gələcək,
qardaşlarım,
qanadlarında
günəş və bahar cilvələrən
quşların pişvazına çıxaq,
qollarımızdakı zəncirlərlə,
qəlbimizdəki yaralarla...
Bilirəm,
gələcək deyilən
bir şey var,
dəmirin safı - su qatılmamışı.
Bilirəm,
ırmaklar keçiləcək,
fırtınalar susacaq.
Bilirəm,
o gün gələcək,
mütləq gələcək...

# Hər sevinc bir kədər, hər eşq bir ayrılıq gətirir...

## XOŞCA QAL

Xoşca qal,
gəlişindən sevgi umduğum
böyürtkən rəngli gecə.
Xoşca qal,
sərsərilər kimi
dolandığım küçə.
Xoşca qal,
özünə
bambaşqa bir göy üzü nəqş edən
qardaşım gecə fənəri!
Xoşca qal,
qarlı havalarda
çaldığım fit,
oxuduğum türkü.
Xoşca qal,
anamın bəyaz yaşmaqlı üzü.
Xoşca qal,
ihlamur ağacının gövdəsinə
yazdığım yazı.
Xoşca qal,
uzaqlarda yanan
küləşin parıltısı...
Xoşca qal,
üz-gözümü isladan yağış,
gördüyüm yuxu -
eşq, qovğa və kədər...
Xoşca qal,
qırıq kətil,
dəyirmi masa
masanın üstündəki
qum saatı.
Qum saatı,
Sən demədinmi
getmək vaxtıdı?..

## MOR SEVGİ

Ey mor sevgi,
nəyə, nəyə yetər gücün?
Məni
o tənha
dağ çeşməsinin
yanına apar,
sevdiyimin ovuclarını
öpücüklərlə doldurum.
Ey mor sevgi,
nəyə, nəyə yetər gücün?
Gətirə bilərsənmi
keçən günləri geri?
Yağdıra bilərsənmi
sevdiyim yağışları?
Ey mor sevgi,
nəyə, nəyə yetər gücün?
Sağımda bir ulduz otursun,
solumda bir ulduz,
bulud keçməsin aramızdan...
Ey mor sevgi,
nəyə, nəyə yetər gücün?
hər sevinc bir kədər,
hər eşq bir ayrılıq gətirir...

## GÖNDƏRMƏYƏ BİLMƏZDİM

Bir gəmi düzəltdim kağızdan,
içinə
sənə yazdığım
şeiri qoydum,
atdım dənizə.
Bilirəm,
yol verməyəcək fırtına,
amma
göndərməyə də bilməzdim...

## AĞI

Vurdular dəliqanlını,
gözümlə gördüm -
axdı
zanbaq kimi al qanı
atının yalmanına...
Anası
bir damla göz yaşından
doğmuşdu onu,
bir ovuc sevinclə
böyütmüşdü,
çətinliklərdən,
hüzndən
saçları ağara-ağara...
On doqquz yaşındaydı,
bir gözaltısı vardı,
öpmək nədi,
əli belə dəymomişdi
əllərinə,
amma
bütün məhəllə bilirdi -
aşiqi-məşuqdular...
Vurdular dəliqanlını,
gözümlə gördüm -
axdı
zanbaq kimi al qanı
atının yalmanına...
Bir göyərçin
qalxdı məhəllədən,
qurudu
dibçəkdəki bəyaz gül,
çilikləndi
bir şəklin
üzündəki şüşə...
Vurdular dəliqanlını,
gözümlə gördüm -
axdı
zanbaq kimi al qanı
atının yalmanına...
Çarxın dağılsın, dünya!..

## GÖYƏRÇİNLƏR

Mən -
Hasköylü kor İlyas
hər səhər oyananda
gördüyüm yuxunu
xeyirə yozaram.
açmağına açaram
köksümün altun qəfəsini,
amma
qorxaram ki,
göyərçinlərim birdən
başqa şəhərə
uçub gedərlər...
Mən -
Hasköylü kor İlyas
darı sataram
göyərçinləri yemləyənlərə
və dünyadakı
bütün acıları
doyurunmuş kimi
sevinclə dolar içim...
Amma qorxmasına da, qorxaram,
ya birdən
başqa şəhərə
uçub getsələr göyərçinlər,
əlimdə qalsa darım?..

## KƏDƏR ATLASI

Nilufərlər
niyə suya əyir başını,
niyə quru ot kimi
alışır ilk sevgilər -
ey kitablar, söyləyin mənə...

Söyləyin mənə, ey kitablar,
aramızda elə biri
varmı ki,
ölmədən öncə
türkü oxusun?..

Söyləyin mənə,
ey kitablar,
niyə
gözümüzü yumub-açana qədər
özünü çatdırır ölüm?

Varmı kədərin atlasında
darçın ətirli
elə bir şəhər
enməsin damına
göz yaşından ulduz böcəkləri
ya da
darçın ətirli bir eşq,
heç ölməyən?..
Söyləyin mənə, ey kitablar.

## QARANLIĞA NAXIŞ VURAN QIZLAR

Qaranlığa
naxış vuran qızlar,
ey yasaq yuxulardakı yalnızlar,
alma alma yanaqlarınız
çatlamasın aynalarda,
qucaqlayın yağışın səsini,
necə olsa,
bir gün
açacaq akasiyalar...
Qızlar, qızlar,
gecəyə naxış vuran yalnızlar,
alnınızı
turuncu eşq
lacivərd kədərdə?

## BƏYAZ GECƏDƏ

Nə edim,
öyrənmək istəyirəm,
maraqlı gəlir mənə:
gəmiçinin
hər səfərində sevginin
ürəyinə sığanını götürməsi,
həm də bəyaz gecədə.

Nə edim,
öyrənmək istəyirəm,
maraqlı gəlir mənə:
Camlıhemşinli ustanın
Batumdan köç etməsi,
kömür yüklü bir qayıqda,
həm də bəyaz gecədə.

Nə edim,
öyrənmək istəyirəm,
maraqlı gəlir mənə:
Bosniyadan,
Makedoniyadan
sürgün edilənlərin
vaqonların torli şüşələri
arxasından
güclə seçilən sifətləri...
Hələ içlərində bir qadın...
Hələ içlərində bir qadın
vaqondan düşər-düşməz
doğmuş anamı,
həm də bəyaz gecədə...

Nə edim,
öyrənmək istəyirəm,
maraqlı gəlir mənə:
Bozüyüklə Biləcik arasında,
min doqquz yüz
qırx yeddinin martında
qarlı havada
ac qurdlar hücum edəndə,
gənc bir dəliqanlının
teleqraf dirəyin başında
soyuqdan donaraq öldüyünü,
həm də bəyaz gecədə...

Bəyaz gecə,
nə edim,
öyrənmək istəyirəm,
maraqlı gəlir mənə:
sən nədən
bu qədər
qapqarasan?..



Hazırladı:
DİLSUZ